## İlin ən uğurlu kəşfləri

ABŞ-ın populyar xəbər jurnallarından olan «TIME» dərgisi
2012-ci ilin ən mğvəffəqiyyətli və diqqətzəkici icadlarını təqdim etmişdir

Bu icadlar arasında ən diqqət çəkənlərdən biri qapalı yerlərdəki buludlardır. Hollandiyalı sənətkar Berndnaut Smildenin təkmilləşdirdiyi texnika vasitəsilə otağın ortasında kiçik, ağ bulud yaratmaq mümkündür. Ancaq həmin mühitdə istilik, nəmişlik, işıq kimi faktorların çox diqqətli bir tərzdə nizamlanması vacibdir. Bir neçə saniyə havada qalan bu mükəmməl bulud görənləri həyəcanlandırır.

Markin Yakubovski altı gün ərzində traktor istehsal etmiş, sonra da buna necə nail olduğunu internetə yüklədiyi pulsuz videolarla bütün dünyaya izah etmişdir.

Masaçusets Texnoloji Universitetinin beş tələbəsi və professor Kripa Varanasi şüşə, keramika, metal ya da plastik səthləri əlavə sürüşkən hala gətirən LiquiGlide adlı bir maddə hazırlamışlar. Bitki mənşəli bu maddə sayəsində artıq şüşədən tökülməyən ketçup parçaları və ya qanadların buz bağlanması nəticəsində təxirə salınacaq təyyarə uçuşlarına yer qalmayacaq.

Dizayner Gabriele Diamant təmiz suyun əldə edilməsində çox çətinliklərlə qarşılaşan «Üçüncü dünya» ölkələrində istifadə edilməsi nəzərdə tutulan Eliodomestico filtr qurğusunu hazırlamağı bacarmışdır. Qurğu günəş enerjisi ilə işləyir. Hazırda istismarda olan modellərin istehsal qiymətinin yarısına başa gələn və məhsuldarlığı 67%, daha keyfiyyətli olan bu cihazın dizaynı da sərbəstdir, yəni yerli istehsalçıların dizaynı istədiyi kimi formalaşdırıb istifadə etməsi mümkündür.

Ukraynalı dörd tələbə danışmaq və eşitmək imkanı olmayan əlillərin, işarə dilini bilməyənlərin ünsiyyət qura bilməsinə şərait yaradan bir əlcək hazırlamışlar. Əlcəklər işarə dilini başa düşərək smart telefonlara yazılı mətn göndərə bilirlər. Telefondakı proqram sayəsində bu mətnlər danışığa çevrilir.

Hazırladı:
İxtiyar QASIMOV